**Məxfilik Siyasəti**

## 1. Əsas Məlumatlar

1.1. “PAŞA Travel” MMC (Bundan sonra “Biz”) olaraq Biz, müştərilərimizin və istifadəçilərimizin fərdi məlumatlarının saxlanmasını, emalını və həmin fərdi məlumatların mühafizəsini həyata keçiririk.

1.2. Biz sizinlə bağlı olan bütün informasiyaları idarə edən yeganə informasiya idarəedicisiyik. Biz informasiyasının necə, nə üçün və harada istifadə olunması ilə bağlı qərarları qəbul edir, kompleks olaraq xidmətlərin göstərilməsi məqsədilə həmin məlumatları informasiyaların data bazamızda saxlayır və təhlükəsizlik baxımından mühafizə edirik.

1.3. Sizin fərdi məlumatlarınızın, istifadə tarixçənizin data bazamızdan silinməsini tələb etmək hüququnuz vardır.

## 2. Haqqımızda

2.1. Biz, PAŞA Travel olaraq istifadəçilərimizə platformamız vasitəsilə müxtəlif yönlərə biletləri sifarişi vermək, platformamızda qeydiyyatdan keçən müştərilərə isə sərnişinlərin sifarişlərini görüb, qəbul edib, onlara xidmət göstərə bilməsi üçün platforma, proqram təminatı təqdim edirik.

2.2. Həmin bu xidmətlərin icrası elektron mühitdə yerləşən veb saytımız vasitəsilə həyata keçirilir.

2.3. Bu xidmətlərimizdən istifadə edərkən Müştərilər öz Müştəri Hesablarına, istifadəçilər isə platformamız üzərindən qeydiyyatdan keçdikləri elektron kabinetlərinə daxil olurlar. İstifadəçilər və Müştərilər bizim platformalarımızdan istifadə edərkən onlara aid bəzi fərdi məlumatlar, bu siyasətdə nəzərdə tutulan məqsədlər üzrə tərəfimizdən yığılaraq emal edilir və saxlanır.

2.4. Əgər bu məxfilik siyasəti ilə bağlı hər hansı sualınız yaranarsa office@pashatravel.az- elektron poçtu (email) və (+994 12) 404 10 90 əlaqə nömrələri vasitəsilə bizim müştəri xidmətləri ilə əlaqə saxlaya bilərsiniz.

## 3. Məxfilik Siyasətinə Razılıq

3.1. Siz Məxfilik Siyasətini qəbul edərək xidmətlərimizin təqdim olunması və siz tərəfdən istifadəsi üçün zəruri olan məlumatların biz tərəfdən yığılmasına və istifadəsinə razılıq verirsiniz.

3.2. Hüquqi öhdəliklərimizin hərtərəfli icrası üçün sizə aid fərdi məlumatlardan istifadəyə dair ümumi məqsədlərimiz:

3.2.1. Şirkətimizin idarə olunması və tərəfimizdən sizə təqdim olunan xidmətlərin hərtərəfli və keyfiyyətli şəkildə icrası;

3.2.2. Araşdırmalar və analitik analizlərin aparılması;

3.2.3. Daxili yoxlamalarının həyata keçirilməsi;

3.2.4. Məlumatların əldə edilmə zəruriliyi;

3.2.5. Qanun ilə və ya müvafiq dövlət orqanı tərəfindən fərdi məlumatların tələb edilməsi.

3.3. Bundan əlavə, sizin sorğularınıza cavab vermək məqsədilə, həmçinin xidmətlərlə bağlı və digər əlaqəli yeniliklərin sizə təqdim olunması üçün lazımi məktubların email ünvanınıza göndərilməsi, telefon nömrələrinizə zəng etməyimizə razılıq verirsiniz.

3.4. Bu Məxfilik Siyasəti bizim tərəfimizdən yığılan informasiyalara şamil olunur. Bu zaman sizin fərdi məlumatların təqdim olunması və onun doğruluğu sizdən asılıdır və doğruluğuna dair məsuliyyəti siz daşıyırsınız. Yalnış qeyd olunmuş informasiya, məsələn email ünvanı, bizim sizinlə əlaqə yaratmağımıza mane ola bilər.

3.5. Əgər bizim məlumatların yığılmasına dair siyasətimiz sizi qane etmirsə, siz məlumatların yığılması üçün verdiyiniz razılıqları geri ala bilərsiniz. Bu siyasət və siyasət üzrə razılıq, məlumatlarınızı yığmağımız üçün əsas qanuni bazadır. Siz həmçinin fərdi məlumatlarınızın tərəfimizdən emal edildiyinə, fərdi məlumatlarınızın üçüncü şəxslərə ötürülməsinə, emal edilmənin əvvəlcədən müəyyənləşdirilmiş məqsədlərə uyğun istifadəsinə dair məlumat əldə edə, qüvvədə olan qanunvericiliyə və məqsədlərə zidd şəkildə emal ilə bağlı isə etiraz edə bilərsiniz.

3.6. Veb saytlarımızdan istifadə etdiyiniz zaman biz sizin elektron cihazlarınıza elektron platformalarımızdan istifadənin təmin edilməsi məqsədilə Kukilər yerləşdiririk.

3.7. Fərdi məlumatlarınızı sadəcə tətbiqlərimizdən və xidmətlərimizdən istifadə ərzində, lazımi müddət ərzində, bildirdiyimiz məqsədlərə çatmaq üçün saxlayırıq, həmin müddətlərin başa çatması ilə fərdi məlumatları saxlamağımıza əsas olacaq heç bir səbəb olmadıqda Fərdi Məlumatlar haqqında qanunun 9.4-cü maddəsində nəzərdə tutulduğu kimi sizə aid məlumatları məhv edirik.

**4. Məxfilik Siyasətinin əhatə dairəsi**

**Fərdi Məlumatların ümumi əhatə dairəsi:**

4.1. **Elektron və telefon məlumatları** – Xidmətlərimizdən, veb-saytımızdan istifadə etdiyiniz zaman sizin hansı ardıcıllıqla səhifələrə daxil olduğunuz, daxil olduğunuz cihaz, həmin cihaza dair daxili məlumatlar, IP adresiniz, istifadə etdiyiniz əməliyyat sistemi və brauzer proqramı məlumatlarınız serverimizdə yadda saxlanılır. Bu məlumatlarla bağlı məhdudlaşdırmaları siz öz cihazınız daxilində tənzimləyə bilərsiniz.

4.2. **Məkan məlumatları** - IP adresiniz üzərindən sizin coğrafi ərazi üzrə harada olduğunuzu müəyyən edə bilərik. Həmçinin tətbiqlərimizdən istifadə etdiyiniz zaman daşıma xidmətləri üçün tələb etdiyiniz marşrutu, marşrut üzrə hərəkətinizə dair məlumatları da təsbit edib, saxlaya bilərik.

4.3. **Şəxsi və əlaqə məlumatları** – Xidmətlərimizdən istifadə edən şəxslərin ad, soyad, cinsiyyət, elektron poçt, telefon nömrəsi kimi məlumatlarını toplayırıq.

4.4. **İstifadəçi məlumatları** – Elektron məlumatlar əldə edildikdən sonra qeydiyyatdan keçərkən seçilən İstifadəçi adı, qeydiyyatdan keçmə tarixi və şifrələr haqqında məlumatları da təhlükəsizlik məqsədləri ilə toplayırıq.

**Fərdi Məlumatların Müştərilər üçün nəzərdə tutulmuş əhatə dairəsi:**

4.5. **Hüquqi sənədlər üzrə məlumatlar** – Şirkətdə müştəri olaraq qeydiyyatdan keçmək arzusunda olan şəxslər Şəxsiyyət və Müştərilük vəsiqəsini təqdim etməlidirlər. Bu vəsiqələr üzrə FIN kod, seriya nömrələri Şirkətimiz tərəfindən yığılır.

4.6. **Geolokasiya məlumatları** – Müştəri tətbiqdən istifadə edərkən müştəri sifarişlərinin ona yönləndirilməsi məqsədilə Şirkət Müştərinün hərəkət marşrutunu və məkan məlumatlarını əldə edir.

4.7. **Məhkumluq haqqında məlumatlar** – Müştərilər şirkətimizdə qeydiyyatdan keçərkən məhkumluq haqqında arayış təqdim edirlər. Bu arayış üzrə məlumatlar Şirkətimiz tərəfindən əldə edilir.

4.8. **Müştəri hesabı üzrə məlumatlar** – Müştəri hesabında əks olunan məlumatlar, müştəri balansına depozit edilən məbləğlər üzrə məlumatlar tərəfimizdən əldə edilir və saxlanılır.

4.9. Sizə xidmətlərimizdən daha tez xəbərdar olmaq üçün bildirişlər göndərə bilərik. Bu bildirişlərin qarşısını almaq üçün cihazınızda müvafiq dəyişiklikləri etməlisiniz.

4.10. Biz sizin fərdi məlumatlarınızı istifadə etdikdə şirkətimizin maraqlarına uyğun davranacağıq.

4.11. Biz yığılan məlumatların həssaslığını anlayır və buna görə də məlumatların emalı zamanı konfidensiallığı qorumağa və əməkdaşlıq etdiyimiz üçüncü şəxslərin bizim göstərdiyimiz qaydalara uyğun davranmalarına nəzarət edəcəyik.

4.12. Siz fərdi məlumatlarınızdan istifadəmizdən narazı qaldıqda, bunu əsaslandırmaqla bizdən məlumatlardan istifadə etməyimizi dayandırmağımızı istəyə bilərsiniz.

4.13. Əgər Siz toplanmış məlumatlarınızın səhv olduğunu ağlabatan surətdə güman edirsinizsə və ya tərəfimizdən yığılan Müştərilər haqqında məlumatlarda dəyişikliklər olarsa, bizimlə əlaqə saxlayaraq məlumatlarınızda düzəliş edə bilərsiniz. Fərdi məlumatlarınızda düzəliş etmək üçün zəhmət olmazsa office@pashatravel.az elektron poçtuna yazın (www.pashatravel.az).

**5. Fərdi məlumatların əldə edilməsinin xüsusi məqsədləri**

5.1. Endirim, təşviqat kampaniyalarının, bonusların, promokodların idarə edilməsi;

5.2. Fərdi məlumatların və hüquqpozmalar çərçivəsində hüquq-mühafizə orqanlarına dəstəyin göstərilməsi;

5.3. Həm daxili, həm də üçüncü tərəflər vasitəsilə məxfi şəkildə statistik təhlillərin, bazar araşdırmalarının aparılması və tərtib edilməsi;

5.4. Müştəri hesabınızın, elektron kabinetinizin yaradılması və idarə edilməsi;

5.5. Reklam, xəbərlər, kampaniyalar, endirim kuponları və A ilə əlaqəli digər məlumatların sizə çatdırılması;

5.6. Müştərilər və İstifadəçilərlə kommunikasiyamızın daha da yaxşılaşdırılması, xidmətlərimizin, elektron platformamızın inkişaf etdirilməsi;

5.7. Satınalmalar, xidmətlər, sifarişlər, ödənişlər və A ilə əlaqəli digər əməliyyatların idarə edilməsi;

5.8. PAŞA Travelin platformasından istifadə edən şəxslər üçün xidmətlərimizin daha da fərdiləşdirilməsi;

5.9. PAŞA Travelin platformasından səmərililiyinin artırılması və istifadəçi təcrübəsinin daha da təkmilləşdirilməsi;

5.10. Yeniliklər, yeni xidmətlər, təkliflər barəsində istifadəçilərin xəbərdar edilməsi;

5.11. Zərurət yarandıqda yeni biznes fəaliyyətlərinin idarə edilməsi;

5.12. Hüquqazidd əməliyyatlar, dələduzluq və bu kimi digər cinayətkarlıq fəaliyyətlərinin qarşısının alınması,

5.13. PAŞA Travel veb saytından və ümumilikdə xidmətlərdən istifadə ilə bağlı rəy və sorğuların alınması, mübahisələrin həll edilməsi, istifadəçilərin sorğularına cavab verilməsi;

5.14. İstifadəçilərə xəbərlərin göndərilməsi, platformalardan istifadədə dəstək göstərilməsi və digər məqsədlər üçün fərdi məlumatların yığılmasını və işlənilməsini həyata keçiririk.

**6. Fərdi Məlumatların ötürülməsi**

6.1. Sizin tərəfinizdən və ya üçüncü şəxslər tərəfindən bizə daxil olan fərdi məlumatlarınız tərəfimizdən sizə yüksək səviyyədə xidmət göstərilməsi üçün istifadə olunacaqdır. Texniki dəstəyin göstərilməsi, xidmətlərimiz barədə məlumatların sizə çatdırılması, istifadə etdiyiniz tətbiqin vaxtında yenilənməsi, bizim sizinlə əlaqə saxlamağımız, və ya müraciətinizə cavab verilməsi və sairə xidmətlərin göstərilməsi üçün zəruri hərəkətlər daxildir.

6.1.1. Biz araşdırma məqsədləri üçün, platforma ilə əlaqədar yenidənqurma işlərini həyata keçirən və bu məzmunda əməkdaşlıq etdiyimiz şirkətlərə sizə aid olan fərdi məlumatları müvafiq məqsədlər, qanunvericiliklə nəzərdə tutulmuş şərtlər və sizin razılığınız çərçivəsində ötürə bilərik.

6.2 Fərdi məlumatlarınız qanunla bizdən tələb olunduğu hallarda müvafiq dövlət qurumlarına tərəfimizdən göndərilə bilər.

6.3. Hər hansı qanun pozuntusu şübhəsi olarsa, qanunsuz fəaliyyətin qarşısının alınması və istifadəçilərimizin təhlükəsizliyini təmin etmək üçün bəzi informasiyaları müvafiq qurumlarla paylaşa bilərik.

6.4. Siz bizdən bizim və ya müqaviləmiz olan üçüncü tərəf serverlərdə olan fərdi məlumatlarınızı və bizim onlardan istifadə statistikamızı istəyə bilərsiniz.

**7. Yığılmış Məlumatların Məhv Edilməsi**

7.1. Siz xidmətlərimizdən istifadə etdikdən sonra fərdi məlumatlarınızın silinməsini bizdən tələb edə bilərsiniz. Bunun üçün bizim məlumat məqsədli yaradılmış elektron poçtumuza müraciət etməlisiniz. Müraciətinizdən sonra Fərdi məlumatlar haqqında Azərbaycan Respublikası qanunun 9.4-cü maddəsi çərçivəsində sizə aid bütün fərdi məlumatları serverlərimizdən silinəcək.

7.1.1. Hüquqi tələblər əsasında bəzi məlumatlarınız, həmin məlumatların saxlanmasına dair zərurətin hələ də qüvvədə olması əsası ilə sizin müraciətinizdən sonra silinməyə bilər.

7.2. Sizə aid fərdi məlumatların təhlüksizliyinə dair şübhə və qüsur yarandığı hallarda, fərdi məlumatlarınızın mühafizəsi üçün ağlabatan bütün zəruri və qabaqlayıcı tədbirləri həyata keçirəcəyik.

**8. Dəyişikliklər**

8.1 Biz Məxfilik Siyasətinə vaxtaşırı dəyişikliklər edə bilərik. Biz bu dəyişikləri etməzdən öncə sizə təqdim etditiniz əlaqə məlumatları vasitəsilə əvvəlcədən məlumat verəcəyik. Məxfilik Siyasətinin yeni forması veb saytda yerləşdirildikdən sonra, 3 (üç) təqvim günü ərzində qüvvəyə minir.

8.2. Məxfilik Siyasətinin yeni formasını dərc etdikdən sonra, tətbiqin və ya veb-saytın davamlı istifadəsi İstifadəçinin bütün dəyişiklikləri qəbul etməsi və razılaşması deməkdir. İstifadəçi verilən dəyişikliklərlə razılaşmırsa, veb-sayta girişdən imtina etməli, platformada yerləşən materiallar və xidmətlərdən istifadəni dayandırmalıdır.

**9. Bizimlə necə əlaqə saxlamaq olar?**

9.1. Əlavə məlumat üçün və ya bu Məxfilik Siyasəti ilə bağlı hər hansı bir sualınız varsa, aşağıdakı elektron poçt ünvanı vasitəsilə bizimlə əlaqə saxlayın:

Email: office@pashatravel.az

Telefon: (+994 12) 404 10 90

* Mən, Məxfilik Siyasətini oxudum və qəbul edirəm